

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

13 fevral 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 6 (3718)

# Sabitliyin Azərbaycan nümunəsi

## Respublikamız sürətli inkişafa sabitlik nəticəsində nail olub

**Sabitlik hər bir dövlət üçün ən böyük nailiyyətlərdən biri hesab olunur. Çünki sabitlik olan yerdə inkişaf da var, rifah da. Sabitlik olmadan heç bir dövlət öz məqsədlərinə doğru addımlaya bilməz. Sabitliyə nail olmadan milli və siyasi həmrəyliyə də nail olaq mümkün deyil. Ölkəyə qlobal miqyasda nüfuz gətirən meyarlardan biri məhz sabitlikdir.**



Hazırda dünyada davam edən təbəddülatlar şəraitində Azərbaycanda möhkəm sabitliyin hökm sürməsi dövlətimizin böyük neməti, xalqımızın mühüm uğurudur. Respublikamızın inkişafının, qazandığı bütün nailiyyətlərin təməlində duran əsas səbəblərdən biri məhz siyasi-ictimai sabitlikdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan dünyada sabitlik məkanı, sabitlik adası kimi tanınır.

Azərbaycan da bir vaxtlar qeyri-sabitliyin, hərbi-siyasi böhranların doğurduğu çətinliklərdən, dolanbaclardan keçib. Ötən əsrin 90-cı illərinin əvvəllərində respublikamızda cərəyan edən xaotik proseslər orta və yaşlı nəslin xatirindədir. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan qüvvələrin yarıtmaz fəaliyyəti nəticəsində dövlət idarəçiliyi tamamilə iflic vəziyyətinə düşmüş, ölkədə separatizm meyilləri baş qaldırmış, vətəndaş qarşıdurması təhlükəsi yaranmışdır. Bütün bunlar isə öz növbəsində yenicə qazandığımız dövlət müstəqilliyimiz və bütövlükdə dövlətçiliyimiz üçün böyük təhdidlər yaradırdı. Anarxiyanın, xaosun, siyasi çəkişmələrin güclənməsi, Gəncədə hərbi qarşıdurmanın baş verməsi, qeyri-sabitliyin yaranması dövlət və xalq üçün nə qədər təhlükəli olduğunu göstərirdi. Yalnız xalqımızın ulu öndəri Heydər Əliyevin 1993-cü ilin iyun ayında siyasi hakimiyyətə gəlişi və ölkə prezidenti seçilməsindən sonra Azərbaycan bütün problemlərdən xilas oldu. Ulu öndərin o zaman böyük uzaqgörənliklə həyata keçirdiyi əsas tədbirlərdən biri ölkədə siyasi-ictimai sabitliyin təmin edilməsi oldu. Sabitlik üçün təhlükə doğuran zərərli meyillərə, qanunsuz silahlı birləşmələrə qarşı uğurlu və təxirəsalınmaz tədbirlər həyata keçirildi. Prezident İlham Əliyevin fəaliyyətində diqqət çəkən məsələlərdən biri respublikamızda bərqərar olmuş sabitliyin qorunması və daha da möhkəmləndirilməsidir. Məhz bu sabitliyin nəticəsidir ki, respublikamız sürətli inkişafa nail olub, qarşısına qoyduğu bütün məqsədlərə çatıb. Təsadüfi deyil ki, Azərbaycan bütün dünyada güclü sabitliyin olduğu ölkə kimi tanınır. Azərbaycan nəinki MDB məkanında, hətta Avropanın inkişaf etmiş ölkələri ilə müqayisədə təhlükəsiz dövlətlərdən biri sayılır. Bakının beynəlxalq tədbirlərə evsahibliyi edən məkanlardan birinə çevrilməsinin, ölkəmizin xarici turistlər üçün cəlbedici olmasının da səbəbi məhz sabitlikdir.

Xüsusi ilə qeyd edilməlidir ki, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması, o cümlədən Qarabağda erməni separatizminin darmadağın edilməsi nəticəsində Ermənistanın yalnız Azərbaycana deyil, bütün regiona yaratdığı təhdidlərə birdəfəlik son qoyulub.

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqımıza müraciətində respublikamızda hökm sürən sabitliklə bağlı deyib: "Ölkəmizdə sabitlik hökm sürür. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşamışdır. Bu gün dünyada baş verən hadisələr hamımızın gözünün qarşısındadır. Yeni müharibələr, qarşıdurmalar, münaqişələr alovlanır. Dünyanın müxtəlif bölgələrində qanlı toqquşmalar davam edir. Azərbaycan isə sülh, əmin-amanlıq, təhlükəsizlik və sabitlik şəraitində yaşayır. Əminəm ki, bundan sonra da sabitlik və əmin-amanlıq əbədi olacaq".

# Prezident həmkarını təbrik edib

## Dövlətlərarası əlaqələrin inkişafına xüsusi əhəmiyyət veririk

Prezident İlham Əliyev İran İslam Respublikasının milli bayramı - İslam İnqilabının Qələbəsi Günü münasibətilə Prezident Məsud Pezeşkiana təbrik məktubu ünvanlayıb.

Dövlətimizin başçısı təbrik məktubunda qeyd edib ki, Azərbaycan İranla dövlətlərarası əlaqələrin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir.

Hazırda ölkələrimiz iqtisadi-ticari, nəqliyyat, energetika və digər sahələrdə səmərəli əməkdaşlıq edirlər. Qarşılıqlı fəaliyyətimizin əhatə dairəsinin daha da genişləndirilməsi və yeni məzmunla zənginləşdirilməsi üçün əlverişli imkanlar mövcuddur.

# Liderdən tarixi tövsiyə

## "Həmişə həqiqəti söyləyin"

Prezident İlham Əliyev Davosda Çinin CGTN telekanalına müsahibəsində çox sürətlə dəyişən dünyada liderliklə bağlı fikirlərini bölüşüb.

Liderliyin böyük bir məsuliyyət olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır. Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək.

Prezident ictimaiyyətin dəstəyini əldə etmək istəyən liderlərə də məsləhət verərək deyib: "Həmişə həqiqəti söyləyin və ölkəniz üçün doğru olanı edin".

# Prezidentlər görüşüb

## Sənədlərin mübadiləsi mərasimi olub

Fevralın 12-də Azərbaycan Prezidenti İlham Əliyevin Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud ilə təkbətək görüşü olub. Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

Daha sonra ölkələr arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti və Somali Prezidentinin iştirakı ilə mübadiləsi mərasimi olub.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev fevralın 11-də Azərbaycanda 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev fevralın 11-də "Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Fərman imzalayıb.
- Prezident İlham Əliyev fevralın 10-da İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsi haqqında Fərman imzalayıb.
- Prezident İlham Əliyev fevralın 7-də "Qarabağ Universitetinin Klinikası" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında Fərman imzalayıb.
- Prezident İlham Əliyev fevralın 7-də Anar Rəhim oğlu Əliyevin əmək və əhalinin sosial müdafiəsi naziri təyin edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev fevralın 6-da Sahil Rafiq oğlu Babayevin maliyyə naziri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

# Bakı, gözəl şəhər...

## Paytaxtımız parklar, bağlar, ictimai zonalar şəhərinə çevrilir

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda metronun "Gənclik" stansiyasının yaxınlığında yeni yaradılan parkın açılışında iştirak ediblər.

Son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınıb, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulub. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır.

Belə istirahət məkanlarından daha biri Nərimanov rayonunda - metronun "Gənclik" stansiyasının yaxınlığında, Vaqif prospekti, Ceyhun Hacıbəyli, Şəmsi Rəhimov və Nəsib bəy Yusifbəyli küçələrinin kəsişməsində salınan yeni parkdır.



Dövlətimizin başçısı və birinci xanım parkda yaradılan şəraitlə tanış olublar.

Parkın ərazisi genişləndirilərək 19 hektara çatdırılıb. Ərazidəki mövcud tarixi inzibati bina saxlanılıb və binada bərpa işləri aparılıb.

Yeni salınan parkda sakinlərin və qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün qısa müddətdə gözəl şərait yaradılıb. Burada müasir tələblərə cavab verən iki restoran inşa olunub. Həmçinin fəvvarə də quraşdırılıb.

Müasir istirahət kompleksinin ərazisinin 14 hektarında yaşıllıq sahələri salınıb, 20 mindən çox ağac və kol əkilib. Parkda avtomat suvarma sistemi, su və yanğın çənləri, nasosxana, təhlükəsizlik müşahidə kameraları quraşdırılıb. İşıqlandırma sistemi də yeni layihə əsasında ən müasir standartlara uyğun şəkildə qurulub. Parkda piyada və velosiped yolları çəkilib, uşaq-əyləncə və açıq hava şəraitində müasir məşq qurğuları ilə təchiz edilmiş idman meydançaları yaradılıb.

Yeni parkla yaxınlıqdakı "Dədə Qorqud" parkını əlaqələndirən yeraltı keçid də inşa olunub. Bu da sakinlərin təhlükəsiz və rahat hərəkətinə şərait yaradır.

Daxili işlər naziri vətəndaşları dinləyib 2

Mübariz oğulların sırasında 3

Kibertalamalar təhdidə çevrilir 3

"Savant" sindromu 4

# RESPUBLİKA XƏBƏRLƏRİ

### Xankəndidə iclas

Əlaqələndirmə Qərargahının növbəti iclası Xankəndi şəhərində keçirilib. İclasda dövlət başçısı tərəfindən işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın milli prioritetlərdən biri kimi müəyyən edildiyi, bu sahədə görülən işlərin daim nəzarətdə saxlanıldığı iştirakçıların diqqətinə çatdırılıb. Ölkə Prezidentinin ərazilər üzrə xüsusi nümayəndəliklərinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə məruzələr dinlənilib.

### Gəlirimiz dəfələrlə artıb

Azərbaycanda 30 ildə adambaşına düşən gəlir 60 dəfə artıb. Bu barədə Dünya Bankının "Dünya İnkişafı haqqında Hesabat"ının təqdimatında bildirilib. Qeyd edilib ki, 1993-cü ildə Azərbaycanda adambaşına düşən gəlir 110 dollar olub, 2023-cü ildə isə 6600 dollara çatıb.

### Elektromobillərə şərait yaradılır

Ekoloji cəhətdən faydalı elektromobillərdən istifadənin təşviqi istiqamətində böyük işlər görülür. Bakı şəhəri və ətraf ərazilərdə 22, işğaldan azad edilən ərazilərdə 7, digər regionlarda 15 Elektrik Doldurma Məntəqəsi quraşdırılıb. Bir ədəd 60 kilovatlıq EDM məntəqəsi Qusar şəhəri, Şahdağ istirahət kompleksinə gedən yolda quraşdırılıb və proqram təminatına inteqrasiyası həyata keçirilir.

### Poçt əlaqəsi qurulur

Füzuli şəhərində MİDA binaları ərazisində artıq bu ildən poçt şöbəsi fəaliyyətə başlayıb. Yanvar ayında Şuşada poçt şöbəsi istifadəyə verilib. Növbəti mərhələdə Laçın, Cəbrayıl, Əsgəranda poçt şöbələri fəaliyyətə başlayacaq.İşğaldan azad olunmuş regionlarda 11 poçt filialı, 28 poçt şöbəsi var.

### Nominal əməkhaqqı yüksəlib

Ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 8,1 faiz artaraq 1009,2 manat təşkil edib. Məlumata görə, iqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

### Qarabağ işıqlığa çıxır

"Azərişıq"ın əsas prioritetlərindən biri Qarabağ və Şərqi Zəngəzurda enerji infrastrukturunun yenidən qurulması olub. Bu illər ərzində Şuşada Rəqəmsal İdarəetmə Mərkəzi və Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzi də daxil olmaqla 7 yeni yarımstansiya, Daşaltıda 1 yarımstansiya, Hadrutda qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi, Cəbrayılda Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilib.

### Metrostansiyalara yeni adlar veriləcək

Bu il Azərbaycanda "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar adsız zirvələrə yeni adlar veriləcək. Bundan başqa, Bakı şəhərində və digər böyük şəhərlərdə prospekt, küçə, meydan və müvafiq ərazi vahidlərinə, metro stansiyalarına yeni adlar veriləcək.

### Neft ehtiyatımız nə qədərdir?

Azərbaycanın təsdiq edilmiş neft ehtiyatları 2025-ci il yanvarın 1-nə 7 milyard barel həcmində olub. Məlumata görə, Azərbaycanda xam neft hasilatı 2009-2010-cu illərdə gündəlik, təxminən, 1 milyon barel həcmində olub. 2024-cü ildən 2026-cı ilə qədər ümumi neft mayelərinin istehsalının orta hesabla gündəlik 600 min bareldən bir qədər çox olacağı proqnozlaşdırılır.

### Tarixi məhkəmə davam edir

Müharibə və digər ağır cinayətlərdə təqsirləndirilən erməniəsilli şəxslərin məhkəməsi davam edir. Məhkəmənin fevralın 11-də keçirilən iclasında ittiham aktının Ermənistanın vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı ilə yaradılmış cinayətkar birlik tərəfindən apırılan təcavüzkar müharibənin gedişində Azərbaycan əhalisinin məhv edilməsi və terror faktlarına dair epizodlar elan olunub.

### Nəğdsiz ödənişə üstünlük verilir

Azərbaycanda istifadədə olan ödəniş kartlarının sayı 20 milyona çatıb. Son bir ildə kartların sayı 2 milyon 973 min 578 ədəd artıb. Hər il sürətlə artan bank kartlarının sayı artıq əhalinin sayından 2 dəfəyə yaxın çoxdur. Dövriyyədəki debet kartların sayı isə daha sürətlə artır.

# Daxili işlər naziri vətəndaşları dinləyib

## Keçirilən sıra baxışında 263 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov fevral ayının 6-da və 7-də Qusar Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Qusar rayonunda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Qusar Rayon Polis Şöbəsində Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarından qəbula gələn 335 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.









Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Vətən müharibəsinin 34 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 263 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*"Polis"*

# Maarifləndirmək də mübarizədir

## Bütün ölkə boyu tədbirlər keçirilir

Xankəndidə polis şagirdlərlə görüşüb. Bu xəbər bir neçə il bundan əvvəl yalnız xəyal kimi səslənə bilərdi. Ancaq Azərbaycanın müzəffər Ali Baş Komandanı və rəşadətli Ordumuz həm ölkəmiz, həm də bütün region üçün yeni bir reallıq yaradıb.

Fevralın 7-də Xankəndi Şəhər Polis Şöbəsinin təşkilatçılığı ilə şəhərdə yerləşən Nizami Gəncəvi adına 4 saylı tam orta məktəbdə maarifləndirmə tədbirinin keçirilməsi, bir növ, xəyalın faktda, hadisəyə, xəbərə çevrilməsi təsiri bağışlayır.

Tədbirə gəlincə, narkomaniyanın, erkən nikahın fəsadları, dini radikalizmlə mübarizə və DİN-in Polis Akademiyasında təhsilə təşviq mövzularında keçirilən görüşdə dövlət orqanlarının nümayəndələri, orta məktəbin pedaqoji heyəti və yuxarı sinif şagirdləri iştirak edib.

Görüşdə çıxış edən Xankəndi Şəhər Polis Şöbəsinin rəisi polis polkovniki Zaur Nəsirov narkomanlığın bütün dünya üzrə ən ağrılı problemlərdən olduğunu bildirib, onun yaratdığı təhlükələr, məhvedici təsirləri, eləcə də bu istiqamətdə ölkəmizdə aparılan qətiyyətli mübarizə tədbirlərindən danışıb, erkən nikahın səbəb olduğu problemlər, dini radikalizmin zərərli təsirləri barədə ətraflı məlumat verib. Polis rəisi, eyni zamanda, ali təhsil almaq arzusunda olan şagirdlərə Polis Akademiyasına kursant qəbulu qaydaları barədə danışıb, Akademiyada ali hüquq təhsili almağın, eləcə də daxili işlər orqanlarında xidmətin üstünlüklərindən bəhs edib.





Daha sonra mövzulara bağlı suallar cavablandırılıb.

Səbail rayonunun M.Rahim adına 7 nömrəli tam orta məktəbində də oxşar tədbir keçirilib.

Şagirdlərlə görüşdə Bakı Şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin şöbə rəisi polis mayoru Allahyar Allahyarov, baş inspektor polis polkovnik-leytenantı Kəmalə Ələkbərova, DİN-in Veteranlar şurasının sədr müavini Ramiz Axundov və Bakı Şəhər BPİ Veteranlar Şurasının sədri Emin Məmmədov çıxış ediblər.

Tədbirdə rayondakı yeniyetmə və gənclərin narkomanlıq və digər zərərli vərdişlərdən qorunması istiqamətində aparılan işlər barədə ətraflı məlumat verilib. Qeyd edilib ki, gənc nəslin vətənpərvər ruhda böyüməsi, sağlam inkişaf etməsi, zərərli vərdişlərdən uzaq olması üçün polis öz üzərinə düşən vəzifələri diqqətdə saxlayır. Gəncləri müasir dövrün bəşəri bəlası olan narkomaniya, eləcə də zərərli informasiyanın təsirlərindən uzaq tutmaq üçün birgə mübarizə zəruridir.

Şagirdlərə Polis Akademiyası haqqında da geniş məlumat verilib, ali təhsil ocağına qəbul qaydaları izah edilərək, gənclərin layiqli kariyera perspektivinə diqqət çəkilib.

Sonda məktəblilərin sualları cavablandırılıb.

# Minnətdarlıq hissi ilə yazırlar…

## Vəzifə borcuna və qarşıya qoyulan tələblərə məsuliyyətlə yanaşırıq

Şəhid Fuad Qafarovun həyat yoldaşı Xaçmaz rayon sakini Gülnarə Qafarova DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda xidməti vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə görə Xaçmaz RQİ və TBŞ-nin əməkdaşlarına minnətdarlığını bildirir.

Bakı şəhər sakini Samir Novruzov şəhid ailələrinə göstərilən xüsusi diqqət və qayğıya görə Nəsimi RPİ-nin kollektivinə minnətdarlıq edir.

Xaçmaz rayon sakini Yaşar Rzayev DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasında, hüquqazidd əməllərin qarşısının alınmasında, o cümlədən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə xidməti vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, fədakarlıq nümayiş etdirdiklərinə görə Xaçmaz RPŞ-nin rəhbərliyinə və əməkdaşlarına minnətdarlığını bildirir.

Vətəndaş Elnur Məmmədov öz təşəkkür məktubunda xidməti vəzifələrini layiqincə yerinə yetirən Masallı Rayon Polis Şöbəsinin əməkdaşlarının fəaliyyətindən məmnunluğunu ifadə edir.

# Mübariz oğulların sırasında

## Adı da, qəhrəmanlığı da tarixə yazılıb

**Azərbaycanın igid oğulları 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı ilə dünya üçün qəhrəmanlıq örnəyi yaratdılar. Bu haqq savaşımız bir çox yeni qəhrəmanlar meydana çıxardı, bəlkə, bir qismi də adsız və ya naməlum qəhrəmanlar kimi tarixə düşəcək.**

Əlbəttə, "qəhrəman" adı təkcə döyüş meydanında qazanılmır. Bəzən faciənin ortasında çıxış yolu tapmaq və ya dəhşətli qəza zamanı xilaskara çevrilmə adi insanı qəhrəman edə bilər. Ancaq müharibənin odu-alovu qədər insana mərdi tanıdan, üzə çıxaran ikinci bir sınaq meydanı yoxdur deyəsən. Bu tarixən də belə olub. Vətən torpaqlarının müdafiəsində həyatını təhlükəyə atıb, xalqının azadlığı üçün vuruşanlar həmişə qəhrəmanlıq şərəfi qazanıblar. Bu məqsədə köklənmiş bir ordu, hüquq-mühafizə orqanı, əslində, eyni amal üçün birləşmiş qəhrəmanların birliyidir.

2023-cü ilin sentyabrın 19-da keçirilən antiterror tədbirində Gəncə şəhər Baş Polis İdarəsinin xüsusi təyinatlı bölüyünün manqa komandiri polis baş serjantı Sənan Babazadə də azadlıq, suverenlik və tarixi ədalət adına vuruşanların cərgəsində idi. O gün gecə saat 4 radələrində onu qəhrəmana çevirəcək məchulluğun içinə yürüyürdü...

Sənan Babazadə 1989-cu ildə Gəncədə doğulub. Ailə vəziyyəti ilə əlaqədar olaraq bir müddət Rusiyada yaşamalı olub. Məktəb illərində idmana olan həvəsi onu həm də bu ölkənin azyaşlılar və gənclərdən ibarət taekvondo üzrə milli komandasının üzvünə çevirib.

İllər keçdikcə Sənanın könlündə pöhrələnən Vətən eşqi onda beynəlxalq arenalarda doğma ölkəsinin idman şərəfini qorumaq arzusu oyadır. Gəncəyə qayıdıb orta məktəbi bitirir, kəşfiyyat dəstəsində hərbi xidmətini başa vurduqdan sonra yenidən rinqə dönür.

İndiyədək Azərbaycanın taekvondo milli komandasının tərkibində çıxış etdiyi çoxsaylı beynəlxalq və respublika əhəmiyyətli yarışlar onu idman cameəsinə titullu idmançı kimi tanıdıb. Sonuncu dəfə bu yaxınlarda ənənəvi "Budapest Open" turnirində savat kombat idman



növü üzrə gücünü sınayan xüsusi təyinatlı Sənan Babazadə yarışdan bürünc medalla ayrılıb. Özbəkistan, Xarvatiya və Macarıstanda dəfələrlə adını qaliblər sırasına yazdırıb, 3 dəfə respublika çempionu olub.

Sənanı polis sıralarına haqqı qorumaq, haqlını müdafiə etməkdə iştirakçı olmaq istəyi gətirib. 2017-ci ildə daxili işlər orqanlarında xidmətə qəbul üçün seçilən namizədlərdən biri olaraq Gəncə şəhər BPİ-də PPX-nin polis nəfəri təyin olunub. Bir neçə aydan sonra isə xüsusi təyinatlı bölüyün əməkdaşı olub...

Antiterror tədbiri Sənan Babazdə üçün yeni sınaq meydanı olacaqdı.

Hazırda əksər ölkə yaşayış məskənlərində əməliyyatlara başlamazdan əvvəl hərbi hava qüvvələri və artilleriyanın güclü atəş dəstəyi ərazinin altını üstünə çevirir. Buna görə dinc sakinlərin kütləvi tələfatı yaşanır. Azərbaycanın ordusu, DİN Daxili Qoşunları, polis dəstələri isə yalnız silahlı separatçıları təmizləməyi qarşıya hədəf qoymuşdu və bunun üçün irəliləyirdi.

Sənangilin dəstəsi qaranlığı səssizcə yarıb keçir. Belə anların hətta səssizliyi belə təmkin, peşəkarlıq və psixoloji dözümlülük tələb edir. Bu anları isə yəqin ki, bütün düyüşçülər yaşayıb: düşmənin içərilərinə doğru gedirsən, ancaq hələ də atəş açılmır, görəsən niyə açılmır? Pusqumu var, tapşırılmış marşrutdan kənara çıxılmayıb ki? Həmin an hər kəs əməliyyatın uğurunu və əlbəttə, taleyini proqnozlaşdırmağa çalışır.

Manqa komandiri Sənan Babazadə həmkarının evdə gözləyən azyaşlı qızını xatırlayır həmin an. Atası geri qayıdanda qızına hədiyyə alacağını söz vermişdi və Sənan manqa komandiri olaraq uşağın hədiyyəsinə, daha doğrusu, atasına qovuşa bilməyəcəyindən narahat olur anidən. Elə bu vaxt qəfil atəş başlayır...

Artıq o səsiz gecədən əsər-əlamət qalmır. Ətrafda vıyıldayan güllələr, atılan mərmilər, partlayan bombalar ölüm mələyi kimi uçur. Kəlbəcərin yaxınlığındakı bu yer bir anda ölkə, millət, ədalət, namus, suverenlik, içilən anda sədaqət uğrunda canını fəda etməyə hazır olanların meydanına çevrilir. Əməliyyatın taleyini hər an dəyişə biləcəyi belə gərgin şəraitdə düşmənə qarşı əlverişli imkanlardan yararlanmaq lazım idi. Artıq şəhid və yaralılar da var idi. Buna baxmayaraq, Daxili Qoşunların hərbçiləri və polis əməkdaşları diqqətlərini tədbirin uğurla başa çatdırılmasına yönəldirlər.

"Biz artıq yaralıların təxliyəsinə başlamışdıq. Yanımda bizim bölüyün əməkdaşı polis baş serjantı Turan Qurbanov da var idi. Plana görə qrupumuz yaralı və şəhidləri atəş altından çıxarmalı idi. Bizə doğru güclü atəş açılırdı, ətrafımızda bombalar partlayırdı. Ancaq bu anda cavab atəşi açmağımız yaralıların həyatını təhlükəyə ata bilərdi deyə, sadəcə atəş altında manevr etməyə, təxliyyəni həyata keçirməyə çalışırdıq",- deyir Babazadə.

Yaxınlığa düşən qumbaraatan mərmisinin təsirindən Sənan xəsarət alsa da, yaralı hərbçiləri təxliyyə üçün gələn avtomobilə mindirib ərazidən çıxmalarını təmin edə bilir. Daxili Qoşunların ağır yaralanmış hərbçisini isə şəxsən döyüş meydanından bir neçə kilometr arxaya daşıyır. Yaralı həbçimiz onun hərəkətini ləngitdiyini görüb "məni buradan çıxara bilməyəcəksən, məni at, get" desə də polis baş serjantı silahdaşını atəş altından çıxarıb tibbi yardım qrupuna təhvil verir.

İdmançı həmkarımızın qəhrəmanlığı Azərbaycan Prezidenti tərəfindən də yüksək qiymətləndirilib. O, dövlət başçısının Sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olunub.

Müharibənin və yaxud elə genişmiqyaslı antiterror tədbirinin müqəddaratında hərənin bir payı olsa da, heç kim qələbənin sütununun qəhrəmanlar olduğu gerçəkliyini dana bilməz.

Polis baş serjantı Sənan Babazadə kimi silahdaşını ölümdən xilas edənlərin igidliyini unutmamalı, bu qəhrəmanların uğrunda mübarizə apardıqları dəyərləri bundan sonra da qətiyyətlə qorumalı və müdafiə etməliyik. Ölkəmizin ərazi bütövlüyünü, suverenliyini, sabitliyini qorumaq üçün canından keçən, keçməyə hazır olan hərbçinin də, polisin də əsas missiyası budur.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Kibertalamalar təhdidə çevrilir

## Polis hər bir vətəndaşı diqqətli olmağa çağırır

Xarici kiber müdaxilələrlə 2024-cü ildə 16804 fakt üzrə vətəndaşlar aldadılaraq bank kartlarından 22 milyon (22.442.838) manatdan artıq vəsait talanmışdır.

Ötən il ayrı-ayrı vətəndaşların müxtəlif kiber üsul vasitələrlə saxta link-keçidlərlə 1027 fakt üzrə 2.043.896 manat, alış-veriş səhifələrində elana görə zəng edib şəxsi məlumatları əldə etməklə 411 fakt üzrə 1.196.786 manat, özünü bank əməkdaşı kimi təqdim edib şəxsi məlumat-



ları əldə etməklə 290 fakt üzrə 598.048 manat, mobil telefona kibermüdaxilə yolu ilə 185 fakt üzrə 311.728 manat, bankamatdan pul çıxarılmasına kömək adı ilə 178 fakt üzrə 92.630 manat, oğurlanmış və itirilmiş kartdan 307 fakt üzrə 101.398 manat pul vəsaiti onlayn talanmışdır.

İnternet resurslarında vətəndaşları aldatmaqla, lotoreya, qumar oyunları və digərlərində qazanc əldə edəcəyi vədi ilə 471 fakt üzrə 2.450.403 manat, alış-veriş saytlarında müxtəlif əşya satışı ilə bağlı 626 fakt üzrə 292.344 manat, telefon satışına görə 292 fakt üzrə 116.219, avtomobil satışına görə 100 fakt üzrə 121.640 manat, işə düzələcəyi vədi ilə 336 fakt üzrə 470.734 manat, kredit vədlərinə görə 501 fakt üzrə 139.600 manat, kirayə ev, avtomobil və digər xidmətlərə görə 343 fakt üzrə 82.370 manat olmaqla, digər üsul vasitələrlə 10000-dən artıq fakt üzrə müxtəlif məbləğlərdə pul vəsaitləri xaricdən idarə olunmaqla başqa-başqa xarici hesablara köçürülüb.

Hər bir fakt üzrə aparılan təhlillər və araşdırmalar göstərir ki, aşkar bilinən kiber talama cinayətləri vətəndaşın bank kartına aid şəxsi məlumatların xaricdə olan naməlum şəxslər tərəfindən ələ keçirilməsi nəticəsində baş verib. Saxta xarici nömrələrdən, profil və səhifələrdən naməlum şəxslərin tələblərinə, təkliflərinə, vədlərinə inanan bank kart sahibləri onunla danışan, yazışan naməlum şəxsin niyyətlərini yoxlamadan, araşdırmadan şəxsi məlumatlarını veriblər, şübhəli linklərə keçid ediblər.

Qeyd olunanları nəzərə alaraq, bir daha vətəndaşlara çağırış edirik, şəxsi məlumatları, bank kartı ilə əlaqəli onlayn ödənişlər üzrə – mədaxil və məxarici həyata keçirərkən diqqətli olsunlar, şübhə yaradan bütün təkliflərə ehtiyatla yanaşsınlar, naməlum zənglərə, mesajlara cavab verməsinlər, şübhəli linklərə keçid etməsinlər.

# Polis Akademiyasında təlim

## Məqsəd professor-müəllim heyətinin peşəkarlıq səviyyəsinin artırılmasıdır

Polis Akademiyasında tədris prosesində iştirak edən professor-müəllim heyəti ilə "Ali təhsil səviyyəsində fənn təlim nəticələrinin yazılması və reallaşdırılması" adlı təlim proqramına əsasən "Sillabusların hazırlanması, təlim nəticələrinin qiymətləndirmə meyarları ilə əlaqələndirilməsi, rubrikaların hazırlanması və tətbiqi" mövzularında təlim keçirilib.

Təlimə Azərbaycan Dövlət Pe-



daqoji Universitetinin Təlim-tədris mərkəzinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru Xalidə Həmidova rəhbərlik edib.

Təlim dərsində iştirakçılar tədris etdikləri fənnin təlim nəticələrinə uyğun sillabusların hazırlanması, təlim nəticələrinin qiymətləndirmə meyarları ilə əlaqələndirilməsi, peşə kompetensiyaları, rubrikaların hazırlanması və tətbiqi barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda, müəllimlər qruplara bölünərək fənn təlim nəticələri üçün qiymətləndirmə meyarları və rubrikaların hazırlanması üzrə praktiki tapşırıqları icra ediblər.

*"Polis"*

# Onlarla ilk dəfə görüşdü...

## Xidmətimizin bir adı da xeyirxahlıqdır

Nə adı çəkilir, nə də üzü görünür. Polis olduğu isə məlumdur. İllər öncə himayəsinə götürdüyü uşaqlar da tanımırlar onu. Qayğılarına qaldığı bu əminin, atanın kimliyi barədə bəlkə də heç vaxt düşünməyiblər. Bəlkə də hər biri ayrı-ayrılıqda öz doğması, əzizi bilib onu. Sosial şəbəkədə yayılan görüntü mərhəmətin, xeyirxahlığın elə özüdür. Videonu izləyərkən bu məsum balalara baxıb kövrələnlər, onların taleyini, gələcəyini düşünənlər az olmayıb. Şübhəsiz ki, onların qayğısına qalan polisin, həmkarımızın da ünvanına sağ ol deyiblər, xeyirxahlıq mücəssəməsinə çevrilən əməlini təqdir ediblər. Yeddi ay parçası kimi qız balanın qayğısına qatlanmaq ürək, könül işidir.

İnanırıq ki, qız balalarımız illərdir üzünü görmədikləri qəhrəmanlarını, himayədarlarını görəndən sonra o xoş simanı heç vaxt unutmayacaqlar. Yaddaşlarında canlandırdıqları yaxşı adam, xeyirxah insan portretlərini rənglərlə, sözlərlə ifadə edəndə yalnız onu düşünəcəklər. Kövrək notlarla qeydə alınan görüntülər xidmətimizin bir adının da xeyirxahlıq olduğunu özündə ehtiva edir.

*T.Hafiz*

# Sığınacaqda monitorinq

## Ərazi polisinin çağırışlara operativliyi yoxlanılıb

Bakı şəhər Baş Polis İdarəsinin əməkdaşları sığınacaqlarda "SOS!!! Təhlükəyə çevik reaksiya" adı verdikləri nəzarət-monitorinq tədbiri həyata keçiriblər. Tədbirin əsas məqsədi sığınacaqların fəaliyyəti ilə tanış olmaq və ekstremal vəziyyətlərə bağlı ərazi polisinə edilən müraciətlərə reaksiyanı yerindəcə yoxlamaq olub.

Baş İdarənin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin əməkdaşları



bir neçə gün öncə Binəqədi rayonunda fəaliyyət göstərən uşaq sığınacağına baş çəkiblər.

Buradan baş verə biləcək hər hansı bir hadisəyə nə qədər tez reaksiya verildiyini öyrənmək məqsədilə ərazi polis bölməsinə zəng edilib. Zəng qəbul edildən sonra Binəqədi RPİ-nin əməkdaşları 5, 40-cı Polis Bölməsinin əməkdaşları isə çağırış yerinə, sığınacağa 6 dəqiqəyə çatıblar.

Asayiş keşikçilərinin operativliyini yüksək qiymətləndirən sığınacaq rəhbərliyi polisin belə tədbirlərinin çox vacib və qənaətbəxş olduğunu, sığınacağın təhlükəsizliyinin təmin edilməsinin həyati əhəmiyyət daşıdığını, onlara sığınan qadın və uşaqların qorunması ilə bağlı qayğılarının sahə müvəkkili, yetkinlik yaşına çatmayanlarla iş aparan inspektorlar və post-patrul xidmətinin əməkdaşları tərəfindən qarşılandığını qeyd edib. O, bunun Bakı şəhər BPİ-nin həyata keçirdiyi nəzarət-monitorinqi çərçivəsində edilən çağırışa inzibati ərazidə polis əməkdaşlarının çevik reaksiya verməsi ilə bir daha təsdiqləndiyini vurğulayıb.

Qeyd edək ki, oxşar tədbirlər ötən illərdə də daha bir neçə sığınacaqda keçirilmişdi.

# Əməliyyat keçirilib

## Faktlarla bağlı cinayət işləri başlanılıb

Ağdaşda xırdabuynuzlu heyvanların örüş sahəsindən naməlum şəxslər tərəfindən oğurlanması barədə rayon polis şöbəsinə məlumat daxil olub.

Şəki regional qrupumuzdan bildirilib ki, həyata keçirilən tədbirlərlə əməli törətməkdə şübhəli bilinən, əvvəllər də məhkum olunmuş 34 yaşlı Elcan Musayev və 29 yaşlı Araz Mansırov saxlanılıb. Onlar oğurladıqları heyvanları Bakı şəhərinə apararaq orada restoranlardan birinə satdıqlarını bildiriblər. Araşdırmalarla E.Musayevin Gədəbəy rayonunda törətdiyi analoji əməlinə görə axtarışda olduğu müəyyən edilib. Polis əməkdaşlarının rayon ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı keçirdikləri əməliyyatlar nəticəsində isə 5 nəfər - Aqşin Əzizov, Hafiz Paşayev, Namiq Abidov, Tərlan Mikayılov və Müşviq İbrahimov saxlanılıb. Onlardan çəkisi 2 kiloqrama yaxın marixuana aşkarlanıb.

# Polis Akademiyasına qəbula müsabiqə başlayıb

## Şərtlər, yaradılan şərait və perspektivlər

**Daxili İşlər Nazirliyi Polis Akademiyasına əyani təhsilə III qrupdan “Hüquqşünaslıq” ixtisasına 500, I qrupdan “İnformasiya təhlükəsizliyi” ixtisasına 25 kursantın qəbuluna dair müsabiqə elan edir.**









Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu 165 sm-dən az olmayan, yaşı 16-dan 18-dək, 11-ci sinifdə oxuyan və ya tam orta təhsilli, həqiqi hərbi xidmətə yararlı olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

Xüsusi təyinatlı təhsil müəssisəsinə sənədlərin qəbulu 2025-ci il fevralın 23-dək namizədin daimi qeydiyyatda olduğu yer üzrə polis idarə və ya şöbələrində həyata keçirilir.

“Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisas fənləri üzrə müsabiqədən keçən abituriyentlərin siyahısı Dövlət İmtahan Mərkəzinə göndərilir.

İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Seçilən abituriyentlərlə daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanır.

Tədris Azərbaycan dilindədir, müddəti 4 ildir.

Kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, Akademiyanın ərazisində yerləşən müasir standartlara tam cavab verən yataqxanada yaşayırlar.

Məzunlara “Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisasları üzrə “polis leytenantı” xüsusi və “ehtiyatda olan leytenant” hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

**Qəbul qaydaları haqqında daha ətraflı məlumatları (012) 590-97-76, (012) 454-12-78 nömrəli telefonlar, habelə Polis Akademiyasının "8880" qaynar xətti vasitəsilə və ya www.mia.gov.az, www.pa.edu.az internet saytlarından, Polis Akademiyasının rəsmi instagram və feysbuk sosial şəbəkələrindən əldə edə bilərsiniz.**

# Media müsabiqəsi keçirilir

## Müsabiqənin təşəbbüskarı Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasıdır

Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının təşəbbüsü ilə Birlik ölkələrinin dövlət və ictimai qurumları ilə medianın qarşılıqlı fəaliyyətinin gücləndirilməsi, hüquq-mühafizə orqanlarında xidmətin təşviqi və MDB üzvü olan dövlətlərin daxili işlər orqanları əməkdaşlarının nüfuzunun artırılması məqsədi ilə 2025-ci il üçün müsabiqə elan edilir.

Müsabiqədə MDB-yə üzv olan ölkələrin polis və mülki əməkdaşları ilə bərabər 18 yaşından yuxarı olan digər vətəndaşlar da iştirak edə bilərlər.

İştirakçılar müsabiqənin şərtləri və qaydalarına dair ətraflı məlumatla Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin rəsmi internet saytında və Mütəşəkkil cinayətkarlıqla və cinayətkarlığın digər təhlükəli növləri ilə mübarizə üzrə Əlaqələndirmə Bürosunun (MCMƏB) rəsmi internet saytının müvafiq bölməsinə (https://bkbop-cis.ru/galereya/mediakonkurs/) keçid etməklə tanış ola bilərlər.

Müsabiqəyə foto və media işləri üzrə təqdim edilən nominasiyalar aşağıdakılardır.

1. **"Qələbə günü"**
2. **“Doğma diyarın gözəlliyi”**
3. **“Bizim növbəmiz”**
4. **"Postda"**

İşlər rəqəmsal formatda təqdim edilməlidir.

Müsabiqə hər il iki mərhələdə keçirilir.

Müsabiqənin birinci mərhələsi 2025-ci ilin yanvarın 10-dan iyulun 10-dək keçirilir. Bura iştirak üçün ərizələrin göndərilməsi, işlərin qəbulu və seçilməsi daxildir.

İkinci mərhələ 11 iyul - 31 iyul 2025-ci il tarixlərini əhatə edir. Bura müsabiqə komitəsi tərəfindən işlərin qiymətləndirilməsi daxildir.

Müsabiqədə iştirak etmək üçün iştirakçılar ərizələri doldururlar.

Ərizə hər bir iş üçün rus dilində doldurulur və müəllif tərəfindən imzalanır. Ərizədəki bütün sahələrin doldurulması tələb olunur.

*"Polis"*

# “Savant” sindromu

## Əhatəmizdəki “fərqli insanlar”ı tanıyaq

Düşünün ki, yıxıldınız və başınız ağır zədə aldı. Bir neçə gün özünüzə gələ bilmədiniz. Oyandığınızda isə hər şeyi fərqli gördüyünüzü və hiss etdiyinizi anladınız. Ən çətinlərin öhdəsindən gəlmək üçün sizdə müəyyən bacarıqlar formalaşdı. Məsələn, heç çala bilmədiyiniz musiqi alətlərini çalmağa, şəkil çəkməyə ya da riyazi düsturlar həll etməyə başladınız.

Şübhəsiz ki, bütün bunlar hər özünüzün, həm də sizi tanıyanların təəccübünə səbəb olmaya bilməz. Bu, elmi dildə “savant sindromu” adlanır. İfadə fransızcadan gəlir. “Savant sindromu” ağır səviyyədə zehni xəsarətə sahib olan, ya da zehni çatışmazlıqlardan başqa bir çox insanda olmayan qeyri-adi zehni bacarıqları olan kəslərdə olur. Belə insanların zəka səviyyəsi ümumi zəka səviyyəsi nisbətinin altında olmasına baxmayaraq bir və ya bir neçə sahədə həddindən artıq məlumatlıdırlar. “Savant sindromu” olaraq qeydə alınmış faktların təxminən yarısının autizmlə, qalan yarısının da digər tip inkişaf, zehni çatışmazlıq və ya mərkəzi sinir sistemi xəstəlikləri, ya da yaralanmalarla bağlı olduğu qəbul edilir.

Savantlar, ümumiyyətlə, IQ testlərində olduqca aşağı nəticə göstərdikləri halda, bəzi savantlar IQ testlərində o qədər yüksək performans göstərirlər ki, biz onlara haqlı olaraq dahi deyirik.

Məsələn, «Yağış adam» filminin qəhrəmanı real şəxsiyyətdir. O, Kim Pik adlı autizmli bir savantdır. Kim Pik o qədər qabiliyyətli idi ki, eyni anda iki səhifəni (hər gözü bir səhifə) oxuya və yaddaşında saxlaya bilirdi. 2009-cu ilə, daha doğrusu ölənə qədər Kim Pik NASA-nın marağını çəkən dahilər sırasında idi…

Savantlıq bəzi nevroloji xəstəliklərdən, ya da beyin zədələnmələrindən sonra ortaya çıxa bilər. Buna ən maraqlı nümunələrdən biri olan Derek Amato əvvəl yalnız satış təlimçisi idi. Lakin 2006-cı ildə 39 yaşında başı hovuzun kənarına dəyir. Bir neçə gündən sonra özünə gələn Amatonun eşitmə qabiliyyəti aşağı düşmüş, yaddaş pozğunluğu yaranmışdı. Lakin ən maraqlısı bu adamın başını hovuz kənarına vurduqdan sonra dostunun pianosunu illərin sənətçisi kimi çala bilməsi idi. Bunu necə edə bildiyini internetdən araşdırdıqdan sonra bəzi məlumatlar öyrənə bildi.

Məsələn, Nyu Yorkda bir ortopedik cərrah olan Toni Kikoria anasına telefon köşkündən zəng edərkən onu ildırım vurdu. Lakin hadisədən sonra sağ qalmış Kikoriada klassik piano çalmaq qabiliyyəti əmələ gəlmişdi. Alonzo Klemens isə üç yaşında çox pis şəkildə yıxılıb xəsarət aldığından qalıcı yaddaş itkisi yaşamış, lakin buna görə mükəmməl heyvan heykəlləri yaratmağa başlamışdı.

### Stefen Viltşayr

Autizmli rəssam Viltşayr 8 yaşından bəri binaların şəklini çəkir. Onun mükəmməl fotoqrafik yaddaşı var. Nyu York şəhərinin üzərində vertolyotla qısa bir uçuşdan sonra on kvadrat kilometrlik bir sahədəki bütün binaları, çayları hətta bina nömrələrini belə rəsmə köçürə bilir. Viltşayr London, Paris, Madrid, Roma, Frankfurt, Qüds, Honq Konq kimi şəhərləri də eyni şəkildə çəkdi.

### Lesli Lemke

Lesli Lemkenin şifahi IQ-sü yalnız 58-dir. Doğuşdan kor olan savantın inanılmaz bir musiqi qabiliyyəti var. 14 yaşında bir filmdə Çayskovskinin pianoda ifa edilən musiqisini eşitdikdən dərhal sonra onun da həmin musiqini eynilə ifa etdiyi deyilir. Bu gün dünyanın bir çox yerində konsertlər verir və minlərlə musiqini əzbərdən çala bilir.

### Flu və Key Layman

Tək yumurta əkizi olan bu autizmli savantlar keçmişdəki hər hansı günü, tarixi soruşsanız anında bunu cavablandıra bilirlər. Ayrıca, yaxşı bir avtobioqrafik yaddaşa sahib olduqlarından hansı tarixdə nə geyindiklərini, nə yediklərini anında deyə bilirlər.

### Daniyel Temmet

Daniel Temmet də güclü yaddaşı və riyazi istedadı ilə hamını heyran edir. O, pi sabitinin ilk 22,514 rəqəmini əzbərdən bilir. Bir araşdırmaçı ondan 37 üstü 4-ün nəyə olduğunu soruşanda anındaca cavablandırır (1,874,161). Rəqəmlərin və günlərin fərqli rənglərə və romantik tonlara sahib olduğunu deyir. Üzərində edilən bəzi araşdırmalarda sineztezik olduğu kəşf edilib. Daniyeldəki bu sinezteziyanın Asperger sindromuyla bağlı ola biləcəyi düşünülür. O, bir həftədə yeni bir dili öyrənə bilir.

*Aytən Tahirova*
*polis kapitanı*






# Bilik yarışının qalibləri

## Yol hərəkəti qaydaları ilə bağlı sualları uşaqlar cavablandırıb

Bakı şəhərindəki 1 nömrəli Uşaq- Gənclər İnkişaf Mərkəzi və Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin təşkilatçılığı ilə 238 nömrəli tam orta məktəbdə fəaliyyət göstərən “Yol hərəkəti qaydaları” dərnəyinin üzvləri arasında “Uşaqlar yol hərəkəti qaydalarını necə bilirlər” adlı bilik yarışı keçirilib. Bilik yarışını keçirməkdə məqsəd uşaqların yol hərəkəti qaydaları haqqında biliklərini daha da gücləndirmək və istedadlı uşaqları aşkar etməkdir.

Yarışda “Yol hərəkəti qaydaları” dərnəyinin üzvlərindən ibarət “Piyadalar”, “Polislər”, “Sürücülər”, “Sərnişinlər” və “Svetofor” adlı komandalar iştirak edib. Yarışın sonunda “Sürücülər” komandası I, “Svetofor” komandası II, “Piyadalar” komandası isə III yerdə qərarlaşıb.

Tədbirdə Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin inspektoru polis kapitanı Pərvanə Muradova, 238 nömrəli məktəbin direktor müavini Dilbər Məmmədova, mərkəzin əməkdaşları Solmaz Qasımova, Fəridə Süleymanova, məktəbin müəllim kollektivi və şagirdləri iştirak edib.

*"Polis"*

# Alimlərdən maraqlı araşdırma

## Sosial şəbəkələr tənhalığa səbəb olur

Baylor Universitetində çalışan amerikalı alimlər belə bir paradoksal nəticəyə gəliblər ki, insanlar sosial şəbəkələrdə nə qədər çox vaxt keçirirlərsə, bir o qədər də özlərini tənha hiss edirlər.




Bu barədə araşdırma “Personity and Social Psychology Bulletin” adlı elmi jurnalda dərc olunub.

Alimlər qrupu rəqəmsal vərdişlərin rifah halına necə təsirini araşdırmaq üçün doqquz il ərzində 7 000-ə yaxın niderlandlının məlumatlarını təhlil ediblər.

Nəticələrdən məlum olub ki, sosial şəbəkələrdən həm aktiv, həm də passiv şəkildə istifadə tənhalıq hissini gücləndirir. Mütəxəssislərin fikrincə, onlayn qarşılıqlı əlaqə sosial ehtiyacları ödəmək üçün zəruri olan üz-üzə ünsiyyəti əvəz edə bilməz.

Tədqiqat psixi sağlamlıq üçün üz-üzə qarşılıqlı əlaqənin əhəmiyyətini və rəqəmsal vərdişlərin təsirinin daha çox öyrənilməsinin zəruriliyini vurğulayır.

# Müdriklərin söz xəzinəsi

## Səhvi düzəltməmək ən böyük səhvdir

Şöhrət küləyə bənzər, hər zaman eyni istiqamətdə əsməz.

❖❖❖

Müdriklik insanın özünə kənardan baxa bilmək qabiliyyətidir.

❖❖❖

Təkəbbür istedad ağacında bitən göbələk kimidir.

❖❖❖

Böyük ruhlar iztirablarına səssiz şəkildə dözürlər.

❖❖❖

Yenilik üzə çıxdıqdan sonra onu yaradana ehtiyac qalmır.

❖❖❖

Düşünmədən öyrənmək faydasız, öyrənmədən düşünmək təhlükəlidir.

❖❖❖

Ağıllı insan heç kimlə yarışmaz, beləcə heç kim onunla yarışa bilməz.

❖❖❖

Bilik insanı şübhədən, yaxşılıq acı çəkməkdən, qərarlı olmaq qorxudan qurtarar.

❖❖❖

Hər şeydə gözəllik var, lakin hər kəs onu görə bilmir.

❖❖❖

Nə qədər yavaş getdiyiniz önəmli deyil, əsas odur ki, dayanmayasınız.

❖❖❖

Qaranlığı günahlandırmaqdansa bir şam yandır.

❖❖❖

Nə gec, nə də tez, hər şey vaxtında olur.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik